**Mürşüd Mehdi**

# MƏKTUBDAKI QADIN

**Roman**

qanun nəşriyyatı

**Mürşüd Mehdi** **MƏKTUBDAKI QADIN**
Bakı, Qanun Nəşriyyatı, 2024, 400 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 30.01.2024

Redaktor: Şərif A.
Korrektor: Aytən Səadəti
Mətn dizaynı: Xəyalə Şirinli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0606

© Qanun Nəşriyyatı, 2024
© Mürşüd Mehdi, 2024

Toy ərəfəsində olan gənc Nərminlə nişanlısı Fərhadın qəfil ayrılığı silsilə qətllərlə müşayiət olunur. Əvvəlcə Fərhadın özünün qəzaya düşərək ölməsi xəbəri yayılır. Dalınca Nərminin anası öldürülür. Sonra gənc bir qadın... Daha sonra tanınmış bir həkim... Qatil öldürdüyü adamların ovcunda Nərminə sevgi məktubu göndərir. Beləliklə, şübhələr qəzada öldüyü ehtimal olunan Fərhadın üzərində cəmləşir.

Belə bir vəziyyətdə cinayət-axtarış şöbəsinin rəisi İmran bəy işə başlayır. Nərmin də anasının qatilini tapmaq və ətrafındakı müəmmanı çözmək üçün ona yardım edir. Lakin iş getdikcə çətinə düşür. Hətta İmranın hüquq-mühafizə orqanlarından kənarlaşdırılması ilə nəticələnir. İnadkar qəhrəman isə geri durmur. İşi sona çatdırıb qatili yaxalayır.

Kitabda maraqlı detektiv süjet qarışıq sevgi münasibətləri ilə çarpazlaşaraq mürəkkəb bir düyünə çevrilir. Finala doğru bu düyün açılır və hər şey oxucu üçün aydınlaşır.

Lakin heç kimin gözləmədiyi qeyri-adi bir sürprizlə...

# BİRİNCİ HİSSƏ

# YANDIRILMAYAN MƏKTUBLAR

## *13 iyul 2022*

Yüksək musiqi səsinə nifrət edirəm. Amma əvvəllər məni bu qədər gərginləşdirdiyi yadıma gəlmir. Əslində, son vaxtlar hər şey məni əsəbiləşdirir. Xüsusilə səsə qarşı çox həssas olmuşam. İşin heç vaxt bitməyən iclaslarındakı danışıqlar, ofisdə, restoranda və ya küçədə insanların söhbətləri, ofisdəki printerin dığıltısı, telefonun mesaj səsi – bir sözlə, hər şey!  Bəlkə də səslərə qarşı aqressiyam içimdə məni rahat buraxmayan vicdan əzabından doğmuş qəzəbdir.

Çölə çıxıb dərin nəfəs almağa çox ehtiyacım var idi. Amma gələn qonaqları qarşılamaq məcburiyyətindən heç yerə tərpənə bilmirdim. Qardaşımın ən xoş günündə qonaqları qarşılamalı, ola bildiyimcə sevincli görünməli, bacılıq vəzifəmi layiqincə yerinə yetirməli idim. Əlimə nə vaxt tutuşdurulduğunu xatırlamadığım şərab qədəhini dodaqlarıma toxundurdum. Qonaqlara gülümsəyir, yeni gələnləri qarşılamağa davam edirdim. Tez-tez, bədənimə

dar olan tünd-qırmızı libasın belini ehmalca dartıb genişləndirməyə çalışırdım. Əslində, paltarım toya iki həftə qalmış çox da dar deyildi, sonradan yemək vərdişim dəyişdi. Gecələr soyuducunun qarşısında özümə sendviçlər hazırlayıb iştahla yeyirdim. Gecələr ürəyim qızartmalar istəməyə başladı. Bu istəyimə də qarşı çıxmadım. Yediyim müddət ərzində yeməkdən aldığım həzz az da olsa stresimi azaldır və günahkarlıq hissimi kütləşdirirdi.

Tanımadığım qonaqları (böyük ehtimalla Hafizin iş yoldaşları) qarşılayıb üzlərinə gülümsədikdən sonra özümü restoranın foyesinə atdım. Əlimə keçən kiçik çiyələyi saplağı ilə birlikdə ağzıma qoyub gözlərimi yumdum. İndi çiyələkli tortun yeri vardı! Böyük yemək qaşığı ilə götürüb iştahla yemək bütün stresimi aparardı. Beynimdə çiyələkli tortu təsəvvür edib, süfrədəki çiyələkləri sürətlə yeməyə başladım. Arada ətrafa göz gəzdirib insanların mənə baxıb-baxmadığını yoxladım. Qonaqların bəzisi gözünü məndən qaçırdı. Əlimdəki çiyələyi yerinə qoyub, şirəsini paltarımın kənarına sildim. Başımı qaldırıb insanlara baxmağa üzüm yox idi. Mən neyləyirdim? Əslində, yeməyə qarşı bu qədər həvəsli deyildim. Elə günlərim olurdu işin çoxluğundan naharı bir fincan kofe ilə yola verirdim. Heç yemək barədə düşünmürdüm də. İllah da başım qarışıq olanda...

Ağ mərmər döşənmiş dəhlizdən keçərkən ehmalca ətrafa göz gəzdirdim. Ortalıqda görünmürdü. Bir anlıq çıxıb getmiş olmasını arzuladım. Heç bir söz demədən qəfil itməsi bütün işləri yüngülləşdirərdi. Heç yerdə görünməsə də, gözlərinin mənim üstümdə olduğu hissindən qurtula

bilmirdim. Sanki müşahidə kameraları daim məni izləyirdi. Buna görə çox gərgin olurdum.

Sol əlimə yumşaq toxunuşundan anladım ki, yenə dualarım qəbul olunmayıb.

“Hər yerdə səni axtarıram!” – qara pencəyinin üst düyməsini bağlayaraq dedi.

“Bayaqdan qonaqları qarşılayıram. Ora-bura qaçmaqdan yoruldum” – üzünə baxmadan cavab verdim. Baxmağa cəsarətim çatmırdı. Son iki ayda Fərhadın üzünə baxanda gözlərinin parıltısı bədənimi titrədirdi.

Bir anlıq özümü dünyanın ən pis, ən vəfasız insanı kimi hiss etdim. Qəribə, tərifi olmayan bir xəcalət hissi idi bu. Fərhadın fərqində olmadan mənə yaşatdığı bu hissin acığını ona son zamanlar göstərdiyim soyuqluqla çıxırdım. Halbuki onun heç bir günahı yox idi.

Tünd-qəhvəyi gözlərini qıyaraq yumşaq gülümsəməsini izləmək hələ də mənə böyük zövq verirdi.

“Yaxşısan?” – məni başdan-ayağa süzüb soruşdu.

“Hə... Hə, yaxşıyam. Dediyim kimi, yorğunam sadəcə”.

“Çox gərgin görünürsən” – hələ də məni süzürdü.

“Qonaqları qarşıla, hər şeyin qaydasında olduğunu kontrol et... Əlbəttə, gərgin olacam”.

“Təkcə bu gündən danışmıram. Son vaxtlar bir az qəribəsən...”

“Fərhad, xahiş edirəm, üstümə gəlmə. Ən azından bu gün gəlmə...” – onun gözünün içinə baxmamaq üçün sağa-sola vurnuxur, tanımadığım insanların geyimlərinə baxırdım.

O isə məndən fərqli olaraq baxışlarını mənə zilləmişdi.

“Sən qarşımda olanda ətrafdakı hər şey rəngini itirir” – yazdığı məktubların birində qeyd etmişdi. İlk vaxtlar xoşuma gələn bu poetik cümlələr artıq məni qıcıqlandırır, hər xatırlayanda özümü lazımsız hiss edirdim.

Əlimə kiçik bir kağız parçası sıxışdırdı.

“Gərginliyini necə atacağını bilirəm” – səliqəsiz saçlarını əli ilə düzəltdi – “Çalış indi oxu” – ətrafa baxdı. – “Səni restoranın arxasında gözləyəcəm”.

Yanımdan uzaqlaşan kimi kağızı ovcumun içinə sıxıb əzdim, sonra parçalara ayırıb yerə atmamaq üçün özümü güclə saxladım. Son iyirmi gündə mənə yazdığı sevgi məktublarını saxlamadığımı bilmirdi. O vaxta qədər saxladıqlarımı da yandırmaq istəyirdim.

***

Atamın əmisi qızının qapıdan içəri girdiyini görüb onlara yaxınlaşdım. Qarşılayıb masalarında əyləşdirdikdən sonra anama hər şeyin qaydasında olduğunu işarə etdim. Sonra kənara çəkilib kağız parçasını açdım. Hər dəfə yazmağa fərqli sözlər tapırdı. Hətta bəzən ona yazıçılıq etmək barədə fikirləşməyi məsləhət görürdüm. Məni ciddi qəbul etməmişdi. Mən də fikrimdə qəti olduğuma onu inandıra bilməmişdim. Odur ki, mənə yazdığı hər məktubu maraqla oxuyurdum. Sonralar məktubla bağlı sual versə cavabım olsun deyə oxudum. İndi isə bu kağızı oxumadan Fərhadın görə bilməyəcəyi bir yerə atmaq istəyirdim. Amma gözünün üstümdə olduğunu bildiyimdən əlimdə əzib saxlamışdım. Məktubdakı ilk sözü görəndə dərindən nəfəs aldım.

“Mənə görə, uzun yaşamaq uzun illər həyatda qalmaq demək deyil. Uzun yaşamaq nə qədər ömrün qaldığından asılı olmayaraq, geri qalan həyatının hər saniyəsini illərə bərabər yaşamağı bacarmaqdır. Bunu isə yalnız sevdiyin insanla bacara bilərsən. Mənim saniyələrimi illərə bərabər edəcək yeganə insan sənsən.

Bu vaxta qədər sənsiz keçən heç bir saniyəni geri qaytara bilmərəm... Kaş səni daha tez görəydim, daha tez tanısaydım. Kaş səni daha çox yaşayaydım! Əlbəttə, keçmişə heyifsilənməklə onu geri qaytara bilmərəm. Heç içində sənin xatirələrinin olmadığı keçmişi də istəmirəm. Bilirəm, yenə səbirsiz olduğumu deyəcəksən. Amma bundan belə sənin olmadığın bir gələcəyi də yaşaya bilmərəm. Geri qalan cümlələrimi məktubda deyil, gözlərinə baxıb deyəcəm. Aşağıda, restoranın arxasında səni gözləyirəm”.

Barmaq uclarımdakı tər məktubun kənarlarına iz qoymuşdu. Əllərim titrəyirdi. Mədəmdən yayılan güclü boşluq hissi çox keçmədən bütün bədənimi əsir aldı. Bir anlıq dizlərim qüvvəsini itirdi. Oturmağa yer axtardım, amma ən yaxın divana belə gedəcək gücüm qalmamışdı. Qəbul etmək nə qədər çətin olsa da, mən bir insanın həyatı ilə oynayırdım. Bunu indi başa düşmüşdüm. Hər günü növbəti günə satır, yalandan onu sevdiyimi deyirdim. Evlənməyin hələ tez olduğuna və o vaxta qədər Fərhaddan ayrılmağa məntiqli bir səbəb tapa biləcəyimə inanırdım. Münasibətimizin bu qədər sürətlə irəliləyəcəyini hesablamamışdım. Keçən həftə ailələrin tanışlığı məni daha da sarsıtmışdı. Günü günə satmağım vəziyyəti daha da ağırlaşdırmış və ciddiləşdirmişdi.

“Nərmin, yaxşısan?” – anamın yanıma nə vaxt gəldiyini belə bilmədim. Gözlərini əlimdəki kağıza dikmişdi

“Niyə bu gün hamı mənim yaxşı olub-olmadığımı soruşur?”

“Çünki yaxşı görünmürsən. Nədənsə narahat olduğun çox bəllidir. Həmişəki kimi əhvalını üzündən oxumaq olur” – əlimə baxdı – “Əlindəki nədir?”

Uşaqlıqdakı kimi anamın arxasına gizlənib hər şeyin bir anlıq bitməsini istədim. Dodaqlarımı sıxdım. Başımı sağa-sola tərpədib “Lazımsız kağız” ─ deyə məktubu əzib yumruladım.

Bir az da yaxınlaşdı mənə:

“Düzünü de, yorulmusan bəlkə?!”

“Yox” – dedim. – “Narahat olma. Yaxşıyam. Sadəcə bir az səs-küy...”

Cümləmi bitirə bilmədim. Davam etsəm, səsim titrəyəcək, ağlayacaqdım. Hər çətinlik yaşayanda etdiyim kimi anama sarılmaq istədim. Yenə başımı dizlərinə qoyub özümü dünyanın bütün neqativ güclərindən qoruduğuma inandırardım. Anam həmişə mənə hələ də böyümədiyimi deyirdi. Haqlı idi. Mən heç vaxt böyümək istəməmişdim. İndi... Bu saniyə hələ də anamın kiçik qızı olmağı hər şeydən çox arzulayırdım. Yəqin səhv etməkdən qorxmayan, utanmayan ərköyün kiçik qızının bir azdan bir insanın həyatını məhv etməyə hazırlaşdığını bilsə, mənə görə utanardı. Öyrənəcəkdi, əlbəttə. Ailələrin bundan xəbəri olacaqdı. Hamı səbəbini bilmək istəyəcəkdi. Həyatımın geri qalanını Fərhadsız keçirtmək istədiyimi biləndə mənə nifrət edə-

cəklərindən çox qorxurdum. Amma bu qorxunc sonluqla üzləşəcəyimi bilirdim.

"Səs-küy başıma düşüb. Ən yaxşısı, çölə çıxım, bir az hava alım" – dedim və cavabı gözləmədən pilləkənləri endim.

"Əyninə bir şey al. Soyuq olar" – arxamca səsləndi.

Ona baxmadan əlimi havaya qaldırdım və pilləkənləri enib qapıya yaxınlaşdım. Açar sözləri bir-bir yadıma salıb beynimin içində təkrarlayaraq restoranın arxasına keçdim. "Bacararsan! Bacararsan!" – deyə-deyə əllərimi sıxdım. Bu gün son gün idi. Bu gecə Fərhadı gördüyüm son gecə idi.

***

Qırmızı şərq naxışları ilə bəzədilmiş pilləkənləri enib sola dönəndən sonra da restorandan gələn musiqinin səsi rahat eşidilirdi. Yəqin indi qardaşımla həyat yoldaşının ətrafında hamı bir-birinə sarılıb rəqs etməyə başlamışdı. Kiçik çay daşları ilə döşənmiş dar cığır mavi işıqlarla aydınlanmışdı. Restoranın arxa bağçasına keçdikdə musiqinin səsini hələ də eşidə bilirdim. Bir neçə dəqiqə əvvəl məni narahat edən musiqi səsinin indi Fərhadla son söhbətimə kömək edəcəyinə ümid bəsləyirdim.

Fərhad cığırın sonunda mənə gülümsəyirdi. Bir anlıq ayaqlarımdakı qan çəkildi. Cığırın ortasında dayandım. Hələ də geriyə qaçıb restorandakı qonaqların arasında it-bat olmaq üçün gec deyildi. Alov qırmızısı qalstukunu boynundan çıxarmış, köynəyin yaxasını iki düymə açmışdı. Belə ona çox yaraşdığını demişdim. Buna görə tək qal-

dığımızda həmişə köynəyini belə saxlayırdı. Amma artıq onun nə və necə geyindiyi məni həyəcanlandırmırdı.

Hər zaman mənim əksimə olan iç səsim onun gözlərinə bir daha baxmağımı istədi: axmaq olma, diqqətlə bax, bir də sənə bu qədər dəyər verən insan tapa bilməyəcəksən.

Amma xeyri yox idi. Heç kim və heç nə məni inandıra bilməzdi. Çox səbir etmişdim. Son bir ayda onun səhv buraxmasını gözlədim. Amma olmadı. Fərhad hər gün mənə daha da yaxınlaşır, hər gün daha da şəffaflaşırdı. Onunla bağlı nə bir sualım, nə də bir şübhəm qalmışdı. Ayrılmağa bircə səbəb var idi: həyəcanımı itirmişdim. Ən azından daxilimdəki sevginin ölməsinə səbəb olaraq bunu göstərə bilmişdim. Amma açığını desəm, onu niyə sevmədiyimi tam anlaya bilməmişdim. Çox çalışdım. Onu yenidən sevməyə çox çalışdım. Ürəyimlə deyil, məntiqlə hərəkət etmək istədim. Bütün cəhdlərim boşa çıxmışdı.

Fərhadda məni ondan uzaqlaşdıran nə isə var idi.

Gücümü toplayıb ona tərəf addımladım. Son dəfə əzbərlədiyim sözləri ağlımdan keçirtdim: yalandan sevirəm deyib ikimizi də aldada, bədbəxt edə bilmərəm.

Ən inandırıcı cümləmi isə bir qədər sonra deyəcəkdim: Fərhad, bilirəm bu qərarım sənə qəbuledilməz gələcək, buna yol verməməli olduğuna inanacaqsan, amma gəl bir az vaxt verək bir-birimizə, otur düşün, həyatın səni sevməyən, sevə bilməyən bir qadına həsr edəcək qədər dəyərsizdir?

Ona yaxınlaşanda kürəkləri arxa işıqların qarşısını kəsmişdi. Hündürdaban geyinsəm də ona başımı qaldırıb baxırdım. Saqqalını kəsmək ona yaraşmırdı, demişdim,

amma yenə təmiz üzlə gəlmişdi. Ailəmin qarşısında səliqəli və baxımlı görünmək istəyirdi. Əslində, ona bu cür daha çox yaraşırdı, onu qısqandığım üçün saqqal yalanını uydurmuşdum. Son 1 ayda işləri çox olduğundan çəki atmışdı. Buna görə də çənə xətləri daha aydın bilinirdi. Kiçik olmasına baxmayaq enli, tünd-şabalıdı gözləri vardı. Qüsursuz zahiri görünüşünün qarşılığında çənəsinin altından buxaq sallanan mən ona onu sevmədiyimi deməyə hazırlaşırdım. İçimdəki səs mənə "axı sən kimsən" deyirdi.

Sol əli ilə saçlarıma sığal çəkərək məni başdan-ayağa süzdü. Üzündəki heyranlıq məni dibə çəkirdi:

"Bu cür gözəl olmağa haqqın yoxdur" – dedi – "Başqa qızlara şans vermirsən!"

Udqunmağımın səsi eşidildi. Yalandan gülümsəməyə çalışdım, amma uğurlu alınmadığını bilirdim.

"Sən də çox yaxşısan... Yəni çox yaraşıqlısan" – sözlərim qonşuya tərif deyirmişəm kimi süni səsləndi.

Dərindən nəfəs alıb-verərkən güclü nəfəsi saçlarımı meh dəymiş kimi xəfifdən havalandırdı.

"Nərmin... Mən... Mən düşünürəm ki, gecikdirməyin mənası yoxdur. Ailələr də bir-birini tanıyır artıq..."

Yox...Yox... Ən azından bu gecə yox. Nə deyəcəyini bilirdim. Evlilik təklifi hər sözündən bəlli idi. Ağzımdan nəfəs alıb nəbzimi yavaşlatmağa çalışdım. Yanaqlarım yanırdı. Onunla təklif etməmiş danışmalıydım, yoxsa sözünü bitirməyi gözləməliydim? Bu dəqiqə bu söhbətin kəsilməsi üçün göydən daş düşməsinə də razı idim. Zamanı dayandırmaq üçün həyatımın geri qalanını verə bilərdim.